# Mərkəzi Elmi Kitabxananın 100 illik yubileyi münasibətilə

**Bakı Dövlət Universitetinin (BDU) İnformasiya və sənəd menecmenti fakültəsində Tələbə Elmi Cəmiyyətinin (TEC) təşkilatçılığı ilə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının (MEK) 100 illik yubileyinə həsr olunmuş elmi seminar keçirilib.**



Elmi seminarda BDU-nun Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrasının magistrantı Ayşən Bağırzadə "AMEA Mərkəzi Elmi Kitabxanasının elektron resursları" mövzusunda məruzə edib.

Son vaxtlar Mərkəzi Elmi Kitabxananın elektron resurslarının təkmilləşdirildiyindən bəhs edən məruzəçi 2024-cü ilin sentyabrında "AMEA-da elektron kitabxana yeni mərhələdə" adlı təqdimat keçirildiyini, bu istiqamətdə yeni hədəflərin müəyyən edildiyini diqqətə çatdırıb.

Araşdırmada müəssisənin Kitabxana resurslarının rəqəmsallaşdırılması və idarə edilməsi şöbəsinin fəaliyyəti xüsusi təhlil olunub. Qeyd edilib ki, şöbə kitabxana-informasiya xidmətinin modernləşdirilməsi, informasiya təminatının optimallaşdırılması, zaman və məkan məhdudiyyəti olmadan uzaq məsafədən elektron informasiya xidmətinin göstərilməsi istiqamətlərində fəaliyyət göstərir.

Məruzədə kitabxananın elektron resurslarının inkişaf dinamikası qrafik şəklində təqdim edilib, müqayisəli təhlillər aparılıb, kitabxanada keçirilən e-sərgilər və e-layihələr barədə məlumat verilib, beynəlxalq bazalardan, nüfuzlu elmi resurslardan istifadə imkanları öyrənilib.

Tədbirdə iştirak edən AMEA MEK-in direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov rəhbərlik etdiyi qurumun fəaliyyətinə verilən qiymətə görə seminar iştirakçılarına və məruzəçiyə təşəkkürünü bildirib. Mərkəzi Elmi Kitabxana ilə BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsi arasında müxtəlif platformalarda, o cümlədən kitabxana əməkdaşlarının fakültədə tədrisə cəlb edilməsi, tələbələrə kitabxanada təcrübə keçmək imkanlarının yaradılması, birgə konfransların, ustad dərslərinin və elmi seminarların təşkili istiqamətlərində əməkdaşlığın inkişaf etdirildiyini vurğulayıb.

Elmi seminar müzakirələrlə davam edib.

Elm $g 2025.- 18 aprel(№13).- S.7.